## Azərbaycanın COP29-la bağlı əldə edəcəyi irəliləyiş bizi həvəsləndirir

Biz Bakıda keçirilən görüşlərdə Azərbaycanın COP29-a sədrliyini müzakirə etdik. ABŞ Azərbaycanın bu razılaşmada oynadığı rolu güclü şəkildə dəstəkləyib.

AZƏRTAC xəbər verir ki, bu barədə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn iyunun 28-də jurnalistlərə açıqlamasında məlumat verib.

O bildirib ki, ölkəsi bu sahədə Azərbaycana mümkün qədər informasiya dəstəyi və texniki dəstək göstərib. "Biz iqlim dəyişikliyini dünyanın qarşısında duran çox böyük çağırış hesab edirik. Bu görüş bir sıra, o cümlədən bərpaolunan enerji, iqlim dəyişikliklərinin təsirlərinin aradan qaldırılması kimi məsələlərin həllində irəliləyişin əldə edilməsi üçün imkan yaradır. Azərbaycanın bu sahədə əldə edəcəyi irəliləyiş bizi həvəsləndirir", - deyə ABŞ Dövlət Departamentinin rəsmisi əlavə edib.

**AZƏRTAC**
**2024, 28 iyun**